◆ Cəmilə Çiçək

## Xəyalında Qalaydım

*Sahib Memedov'un Şiirine Nazire*

Mənimlə ilk görüş yadına düşdü,
Kaş ki, xəyalında qalaydım elə.
Düşünməzdik ayrılıq var, dönüm var,
Kaş ki, xəyalında qalaydım elə.

Eşqin dəryasına batıb üzəndə,
Sona kimi göl qoynunda süzəndə,
Özümdə tapardım səni gəzəndə,
Kaş ki, xəyalında qalaydım elə.

Heç bilməzdim sevgimizin əksi nə,
Bir baxaydım bulaqlarda əksinə,
Baş qoyaydım, sığınaydım köksünə,
Kaş ki, xəyalında qalaydım elə.

Sənsiz vaxtı dolu bulud olardım,
Kövrələrdim, saçlarımı yolardım,
Gecə-gündüz xəyallara dalardım,
Kaş ki, xəyalında qalaydım elə.

Sənli, mənli kədərlərə kəmərəm,
Gül yerinə dərdlər, qəmlər dərərəm,
Həsrətimə işıq salan qəmərəm,
Kaş ki, xəyalında qalaydım elə.

Bir sən idin, bir mən idim, bir zaman,
İllər bizi yorğun saldı nə yaman,
Yaşa bir bax, görüşə bax, ay aman,
Kaş ki, xəyalında qalaydım elə.

Qışın boranında yaza dönərdim,
Könüllər dindirən saza dönərdim,
Arada qış olub, buza dönərdim,
Kaş ki, xəyalında qalaydım elə.

Taleyimiz necə oxşar bir baxın,
Aramızda hicran səddi, dərd axın,
İllər uzaq, duyğu yaxın, qan yaxın,
Kaş ki, xəyalında qalaydım elə